2026

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# MART

# Azərbaycan Sığortaçısının Şərəf Kodeksi

Biz, Azərbaycan Sığortaçılar Assosiasiyasının üzvləri milli mənafeyə, iqtisadi inkişaf və siyasi sabitlik üçün əsasları təmin etməyə qadir yeni sosial-iqtisadi münasibətlərə cavab verən yeni ideoloji doktrinanın yaradılmasının zəruriliyini dərk edərək ümumbəşəri dəyərlərə, hamı tərəfindən qəbul edilən mənəvi prinsiplərə, mənəviyyata və hüquqa əsaslanan sığortaçının şərəf kodeksini işləyib hazırladıq. Sığortaçı bir maliyyə müəssisəsi olmaqla, mahiyyət etibarilə kommersiya mənəviyyatının qoruyucusudur, təmizliyi, doğruluğu, ağıllılığı, işgüzarlığı, dəqiqliyi həvəsləndirir və bədməsrəfçiliyi, qumar zövqünü, ağılsızlığı, şərəfsizliyi amansızcasına pisləyir.

Belə bir şəraitdə prosesin bütün iştirakçıları – istehsalçılar, satıcılar, istehlakçıların rifahı, ümumiliklə cəmiyyətin tərəqqisi xeyli dərəcədə sığortaçının xarakterindən, səmərəli əməyindən, onun mədəniyyətindən və mənəviyyatından asılıdır.

Sığortaçı özünün gündəlik peşə fəaliyyətində buna can atır:

-Verdiyi sözə əməl etmək. Onun sözü hər cür imzalardan, möhürlərdən və ya veksellərdən qiymətli və etibarlıdır;

-Özünə, öz tərəfdaşlarına və rəqiblərinə münasibətdə ləyaqətli davranmalı. Sığortaçı qanunsuz və natəmiz işdə iştirakdan qətiyyətlə çəkinir və ona yol verməməkdən ötrü mümkün olan hər şeyi edir;

- Müştərinin, tərəfdaşın mənafeyi üzərində öz mənafeyi qədər çalışır. Bu hamı üçün uğurların və rifahın rəhnidir;

-Sirləri qoruyub saxlamaq. Sığortaçı üçüncü şəxslər və təşkilatlar tərəfindən ona etibar olunmuş məxfi məlumatların qorunub saxlanmasında mütləq dərəcədə etibarlıdır;

-Sözlərində və əməllərində dəqiq olmalı. Sığortaçı kiməsə zərər gətirən hər hansı fəaliyyətdən çəkinir. Birincilik uğrunda mübarizədə yalnız ləyaqətli rəqabət qanuni vasitə ola bilər. Kommersiya uğruna, şan-şöhrətə, karyeraya kiminsə hüquqlarının və mənafelərinin, kiminsə ləyaqətinin və ya rifahının hesabına nail olunmamalıdır;

-İnsan, cəmiyyət, təbiət qarşısında məsuliyyət daşımalı. Sığortaçı siyasətdən kənardır. Əgər onların fəaliyyəti cəmiyyətin qanunları ilə ziddiyyətə girirsə və ya ümumbəşəri dəyərlər anlayışı ilə üst-üstə düşmürsə, sığortaçı şəxsi, partiya, qrup və ya qurumların mənafelərinin yedəyində gedə bilməz;

-Millətlərarası mədəni münasibətlərin qərarlaşmasına, beynəlxalq sığorta əlaqələrinin inkişafına kömək etməli, iqtisadi fəaliyyətin istənilən formasında millətçi yanaşma tərzini rədd etməli;

-Sığorta şirkətləri arasındakı münasibətlərdə yekdillik, həmrəylik və qarşılıqlı yardım prinsiplərinə əməl etməli, korporativlik və etimad ruhunu təsdiq etməli;

-Humanizm nümayiş etdirməli. Sığortaçı ölkənin sahibkarlıq ənənələrindən: xeyriyyəçilik və şəfqətdən kənarda qala bilməz. Sığortaçı ehtiyacı olanlara kömək etməyə hazırdır, bunun üçün əlində olan bütün imkanlardan istifadə edir.

İnsanın şərəf və ləyaqəti – Sığortaçı üçün istənilən digər dəyərlərdən yüksəkdə durur!

# Mərkəzi Bankın İdarə Heyəti yanında Sahibkarlarla Əməkdaşlıq Şurasının iclası keçirilib




Mərkəzi Bankın İdarə Heyəti yanında Sahibkarlarla Əməkdaşlıq Şurasının (Şura) növbəti geniş iclası keçirilib. İclas maliyyə-bank sektoru ilə sahibkarlar arasında əməkdaşlığın daha da gücləndirilməsi və biznes subyektlərinin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi istiqamətində birgə müzakirəsi məqsədilə təşkil olunub.




Azərbaycan Sığortaçılar Assosiasiyasının rəhbərliyinin də dəvətli olduğu tədbirdə Şuranın üzvləri, bank və maliyyə institutlarının rəhbər şəxsləri, həmçinin müxtəlif sahələri təmsil edən sahibkarlar iştirak ediblər. İclas zamanı real sektorun maliyyələşdirilməsi, kredit resurslarına çıxışın daha da asanlaşdırılması, kiçik və orta biznesin (KOB) dəstəklənməsi mexanizmləri, eləcə də innovativ maliyyə alətlərinin tətbiqi məsələləri geniş müzakirə olunub.

# Sığortaçıların kapital bazarlarında aktivliyinin artırılması məqsədilə görüş keçirilib




Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası və Azərbaycan Kapital Bazarları Assosiasiyasının rəhbərliklərinin və bazar iştirakçılarının birgə iştirakı ilə görüş keçirilib.

Görüşdə sığortaçıların kapital bazarlarına əlçatanlığının artırılması, aktivliyin yüksəldilməsi və mövcud maneələrin aradan qaldırılması imkanları geniş müzakirə olunub.
Görüşün yekununda tərəflər, Azərbaycan Mərkəzi Bankına təqdim olunması üçün yeni təkliflərin yer aldığı birgə müraciət hazırlayıblar.

# ASA ölkəmizi beynəlxalq sığorta forumunda təmsil edib




Türkiyənin İstanbul şəhərində ilk dəfə beynəlxalq "İpək Yolu Sığorta Forumu" keçirilib. Azərbaycan Sığortaçılar Assosiasiyasının, İcbari Sığorta Bürosunun və Azərbaycanın bir sıra sığorta şirkətlərinin rəhbərliklərindən ibarət nümayəndə heyəti ölkəmizin sığorta sektorunu beynəlxalq forumda təmsil ediblər.

Forumun başlıca məqsədi region ölkələrinin sığortaçılarını sektorial platformada bir araya gətirmək, habelə, dünyada baş verən geosiyasi gərginlik, müharibələr və nəticə etibarilə meydana gələn qlobal iqtisadi volatillik nəticəsində dəyişən bazar şərtləri fonunda dünya sığortaçılığının yeni inkişaf meyillərinin və prioritetlərinin peşəkar müzakirəsindən ibarət olub.

# ASA-nın icraçı direktoru beynəlxalq "İpək Yolu Sığorta Forumu"nda çıxış edib




Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev İstanbulda keçirilən beynəlxalq "İpək Yolu Sığorta Forumu"nda "Regional sığorta bazarları" adlı paneldə "Azərbaycanın və digər Türk dövlətlərinin birgə əməkdaşlıq fonunda inkişaf perspektivləri" mövzusunda çıxış edib.

E.Mirsalayev çıxışında qeyd edib ki, 2025-ci ilin nəticələrinə əsasən, Türk dünyası ölkələri arasında sığorta yığımlarının həcminə görə Türkiyə sığorta bazarı 27.8 milyard dollarla birinci yerdə qərarlaşır, ikinci yerdə 3.4 milyard dollarla Qazaxıstan bazarı, üçüncü yerdə 1.1 milyard dollarla Özbəkistan bazarı, dördüncü yerdə 885 milyon dollarla Azərbaycan bazarı, beşinci yerdə isə 113 milyon manatla Qırğızıstan bazarı dayanır.

ASA-nın İcraçı direktoru çıxışında bildirib ki, 2025-ci ildə müvafiq ardıcıllıq üzrə Türkiyə sığorta bazarı 45.8%, Qazaxıstan sığorta bazarı 12.5%, Özbəkistan sığorta bazarı 37.8%, Azərbaycan sığorta bazarı 11.2%, Qırğızıstan sığorta bazarı isə 102% böyüyüb.

## Tramp: Ticarət gəmiləri siyasi risklərdən sığortalanacaq




ABŞ–İsrail ilə İran arasında müharibənin Yaxın Şərqdə gərginliyi artırması əsas dəniz yolları ilə daşımalarda riskləri yüksəldib. "The Guardian" xəbər verir ki, ABŞ prezidenti Donald Trampın açıqlamasına görə, o, Beynəlxalq İnkişaf Maliyyə Korporasiyasına (International Development Finance Corporation) Körfəz bölgəsində dəniz ticarəti üçün siyasi risk sığortası və maliyyə zəmanətləri təqdim etməyi tapşırıb.

Qeyd edək ki, İsrail və ABŞ qüvvələrinin həftəsonu İrana zərbələr endirməsindən sonra Yaxın Şərqdən neft tankerlərinin hərəkətində fasilələr yaranıb, nəticədə qlobal xam neft qiymətləri kəskin bahalaşıb

## Qlobal sığorta sektoru üçün 5 strateji tövsiyə




Beynəlxalq maliyyə təşkilatı olan "EY" tərəfindən hazırlanmış "Qlobal Sığorta Panoraması - 2026" araşdırmasına görə, dünyada makroiqtisadi və geosiyasi qeyri-müəyyənliklərin artdığı bir şəraitdə sığorta şirkətlərinin böyümə və gəlirliliyi davam etdirməsi üçün ənənəvi yanaşmalardan kənara çıxması zəruridir.

Araşdırmada sığorta şirkətlərinin 2026-cı il və sonrakı dövrdə uğur qazanması üçün beş əsas istiqamət vurğulanıb:

1. Böyümə strategiyalarının yenidən müəyyənləşdirilməsi;
2. Süni intellekt vasitəsilə uzunmüddətli dəyərin yaradılmasına fokuslanmaq;
3. Qeyri-müəyyən və dəyişkən bazar şəraitinə hazır olmaq;
4. Özəl kapital ilə strateji əməkdaşlıq imkanlarının qiymətləndirilməsi;
5. İşçi qüvvəsinin və korporativ mədəniyyətin transformasiyası.

# "Los Angeles Times" qəzeti: "Kaliforniya sürücüləri yüksək avtomobil sığortası tariflərindən əziyyət çəkir"

"Consumer Federation of America" tərəfindən aparılan araşdırmaya görə, 1989-cu ildən bu vaxta qədər Kaliforniyada avtomobil sığortası tarifləri 12,5% artıb.



California's drivers slammed by high car insurance rates

A DRIVER stays dry as a tow truck operator hooks up the wrecked car to a flatbed truck in Sylmar in 2019.

Increases are more acutely felt in state

Heavier vehicles and higher claims

Drivers facing a tariff fallout

LATIMES.COM Los Angeles Times TUESDAY, MARCH 3, 2026 A11

BUSINESS

İnflyasiya nəticəsində yeni avtomobillərin və ehtiyat hissələrinin qiymətlərinin kəskin bahalaşması, Trump administrasiyasının tətbiq etdiyi tariflərin dərinləşməsi, avtomobillərin daha mürəkkəb olması, ənənəvi avtomobillərlə müqayisədə elektromobillərin təmirinin baha başa gəlməsi, magistral yollarda sürət həddinin artması və yol-nəqliyyat hadisələrinin daha ağır nəticələrə səbəb olması sığorta tariflərinin artmasına başlıca səbəb kimi göstərilir.

"Kaliforniyalılar daha yüksək avtomobil sığortası haqları ilə üzləşirlər, çünki sığortanın təminat altına aldığı demək olar ki, hər şeyin dəyəri artıb," — deyə Amerika Əmlak və Qəza Sığortası Assosiasiyasının vitse-prezidenti Denni Ritter bildirib. Sənaye analitikləri də hesab edirlər ki, Kaliforniyada yüksək sığorta haqları ümumilikdə qalıcı olaraq qalacaq."




QROUP

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***11.900 AZN***

AtəşgahSığorta





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***19.350 AZN***




Xalq Sığorta



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***14.806 AZN***

QALA SIĞORTA





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***29.980 AZN***

**MEQA SIĞORTA**







*Sığorta növü: AVSMMİS*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***62.000 AZN***



**MEQA HƏYAT**

*Sığorta növü: İstehsalatda bədbəxt hadisələrdən icbari sığorta*
*Sığorta hadisəsi: Sığorta olunanın ölümü*
*Ödənilmiş sığorta məbləği:* ***52.707,31 AZN***

**PAŞA Sığorta**





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Avtonəqliyyat vasitəsinin yanması*
*Ödənilmiş sığorta məbləği:* ***71.905,54 AZN***



**PASHA Life**

*Sığorta növü: İstehsalatda bədbəxt hadisələrdən icbari sığorta*
*Sığorta hadisəsi: Sığorta olunanın xəsarət halı*
*Ödənilmiş sığorta məbləği:* ***64.423,68 AZN***

# AtəşgahSığorta
## HƏYAT SIĞORTASI

Azərbaycanda ilk həyat sığortası şirkəti olan "Atəşgah Həyat" Sığorta Şirkəti 1998-ci ilin 12 mart tarixində təsis edilmiş və Azərbaycan Respublikasının "Sığorta haqqında" Qanununun yeni tələblərinə uyğun olaraq həyat sığortası üzrə xidmətləri təqdim etmək üçün 2008-ci ilin dekabr ayında qeydiyyatdan keçmişdir.
Şirkət həyat sığortası üzrə həyatın müddətli sığortası, yığım sığortası, kredit həyat sığortası, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari həyat sığortası və sağalmaz xəstəliklərdən sığorta xidmətlərini təklif edir. "Atəşgah Həyat" SŞ sığorta xidmətlərini həm fiziki, həm də hüquqi şəxslərə təqdim edir.

Şirkətin müştəriləri sırasında BP, Statoil, Azeri M.I. Drilling kimi iri şirkətlər, Azercell, Bakcell, Azerfon kimi GSM operatorlar və digərləri vardır.

"Atəşgah" Sığorta Qrupuna daxil olan bir şirkət olaraq, "Atəşgah Həyat" SŞ öz xidmətlərini Bakıda fəaliyyət göstərən on üç ofis, habelə Sumqayıt, Gəncə, Lənkəran, Şəki, Xaçmaz, Mingəçevir, İsmayıllı, Salyan, İmişli və Bərdə şəhərlərində fəaliyyət göstərən ofislər vasitəsilə təqdim edir.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür.

"Atəşgah Həyat" Sığorta Şirkəti ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.



“PAŞA Sığorta” Açıq Səhmdar Cəmiyyəti Azərbaycanın sığorta xidmətləri bazarında tanınmış liderlərdən biridir. Şirkət 15 mart 2006-cı il tarixdə təsis edilib. Hazırda şirkətin nizamnamə kapitalının həcmi 50 milyon manatdır və 300 minə yaxın korporativ və fərdi müştərisinə 36 növ könüllü və icbari sığorta üzrə xidmət göstərir. Kapitalın bu cür yüksək səviyyəsi “PAŞA Sığorta” şirkətinə öz sığorta öhdəliklərini əminliklə yerinə yetirməyə zəruri maliyyə imkanı yaradır və onun ödəmə qabiliyyətliliyinə zəmanət verir. “S&P Global Ratings” qlobal reytinq agentliyi “PAŞA Sığorta” ASC-nin emitentin uzunmüddətli kredit reytinqini və maliyyə dayanıqlığı reytinqini “BB” səviyyəsində, reytinq üzrə proqnozun üzrə “Müsbət”ə keçdiyini təsdiqləyib. “PAŞA Sığorta” ASC Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 2016-cı il 12 oktyabr tarixli 476 nömrəli lisenziyası əsasında fəaliyyət göstərir.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür.

“PAŞA Sığorta” ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.



ASA AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

Azərbaycan Sığortaçılar Assosiasiyası

asa_insurance

ASA Azərbaycan Sığortaçılar Assosiasiyası
(Azerbaijan Insurers Association)

https://www.asa.az/